# D İ L Ç İ L İ K

**UOT 81 41; 801. 7**

**FİRUDİN RZAYEV***

## NAXÇIVANDA M.Ö. YAŞAMIŞ QAZAN PROTOTÜRKLƏRİ İLƏ BAĞLI ETNOOYKONİMLƏR

*Məqalədə m.ö. Naxçıvanda yaşamış Qazan türklərinin adı ilə bağlı oykonimlərdən bəhs olunur. Naxçıvanla bağlı bu mövzu indiyədək alimlər tərəfindən araşdırılmamışdır. Bu prototürk adlarını daşıyan oykonimlərdəki dil elementləri müxtəlif sözlük və mənbələrlə müqayisəli təhlil olunmuşdur. Bu istiqamətdə dil elementləri əski yazılı salnamələrə istinadən də təhlil olunmuşdur. Bu yazılardakı qədim türk sözləri ilə oykonimdəki sözlərin müqayisəsi yeni elmi nəticələr ortalığa çıxarır. Linqvistik təhlil zamanı Naxçıvan oykonimlərində ortalığa çıxan yazıyaqədərki dövr dil elementləri antik yazılarda da təkrarlanır. Tarixi materialların hərtərəfli araşdırılması zamanı aydın olur ki, oykonimlər bu tayfaların adından yaranıb. Qazan prototürkləri isə antik mənbələrə əsasən m.ö. II-I minillikdə qədim Naxçıvan-Naxər ölkəsi ərazilərində yaşamışlar.*

**Açar sözlər:** *Naxçıvan, Bolqar, Qazan, m.ö minilliklər, etnooykonim, dil elementləri.*

Azərbaycan və onun ayrılmaz torpağı olan Naxçıvan, qədim Naxər ölkəsi ərazisi qədim sivilizasiya mərkəzlərindən biri olmaqla bərabər, qədim türklərin də ilk ana yurdlarından biri olmuşdur. Mənbələrə, antik müəlliflərin əsərlərinə, qədim qaynaq məlumatlarına diqqət etdikdə, biz bu ərazidə 80-dən yuxarı as, naxər, türükkü, kas, kuti, hürrü kimi m.ö. VI-I minilliklərdə yaşamış tayfalar və onların varislərinin bu torpaqda aborigen-yerli sakinlər olduğu faktları ilə qarşılaşırıq. Bu qədim diyarın əhalisinin istər dili, tarixi, istərsə onun etnoqrafiyası və mədəniyyəti, istərsə də etnogenezində xüsusi yeri olmuş tayfalardan biri də Bolqar türkləri ilə bir ittifaqda olmuş Qazan türkləridir ki, bunlar Kas tayfalarının varisləri olmuşlarr. Qədim Azərbaycan ərazilərində öz adları ilə bağlı xeyli sayda məntəqə adlarında öz izlərini qoymuş Qazan türkləri, onların tariximizdəki yeri, Naxçıvanla bağlılığı, eləcə də bu ərazinin bölgələrində yaratdığı məntəqə adları sistemli şəkildə tam tədqiq edilməmişdir. Bununla bərabər Qazan türkləri haqqında olan xeyli sayda tədqiqatlar əsasən əcnəbi alimlərinə məxsus olmuşdur. Bu tədqiqatlarda mənbələr səthi araşdırılmış, onlar haqqında yazılmış əsərlərdə qazanların tarixi m.ö. II yüzillik və eramızın X əsrlərinə qədər olan tarixə aid edilməklə, tədqiqatlarda onların dili, tarixi, hansı xalqa məxsus olması ilə bağlı bir-birini təkzib edən fikirlər yer almışdır.

Biz V.T.Sirotenkonun tədqiqatlarını müqayisəli təhlil etdikdə, burada, Zaxari Pitorun "Kilsə tarixi"nə dair yazılara istinadən Bolqar türkləri, onların qolları haqqındakı məlumatlarında, bu tayfaların eramızın lV-VI əsrin ortalarına aid edildiyinə, bu ərazilərə m.ö. II əsrdə gəlmədiklərinə və Qazan türklərinin adlarının çəkilmədiyinə dair tarixi faktlar göstərmişik [11, s. 419-434]. Onlar bu tayfalardan bəhs etsələr də, Qazan türkləri haqqında məlumat verməmiş, ərazi olaraq onların şimal Qafqazdan Xəzər dənizinə qədər hunlarla bir ittifaqda məskun olduğunu yazmışlar. Lakin V.Sirotenko öz araşdırmalarının sonunda bolqarlardan sonra akasirlərin adını çəkməklə, bu tarixi m.ö. ən azı VII əsrə, skif dövrünə aid edərək, Bolqar və qazanları slavyan kimi göstərmişdir [12, s. 195–218]. U.Batırov və A.Sabyanin qədim Bolqar salnaməsi "Caqfar tarixi"nin məlumatına istinadən m.ö. VIII əsrdə skif tayfaları akasirlərin, Bolqar və rusların Volqa-Ural nəslindən gəldiyini, bunun bolqarlar tərəfindən "saklan" adlandığını yazırlar. Bu saklanlar 15 min il öncə Asiyanın dərinliklərindən gəlib fin-uqorlarla qarışmış, Volqa-Ural ətrafına yayılmışlar. Müəlliflər saklanların sonradan "slavyan", bir

qrupunun isə, türk uqor dilini götürüb “Bolqar” adlandıqlarını yazırlar. Onlar bolqarların sonradan Böyük Bolqariya yaratdıqlarını, bura yirik, as, alan, hun, bolqar, burtaz, bilyar, eskil, barsil, qıpçaq, noxrat, kuşan, sarmat, çolmat, sabakul, xəzər, madyar, noqay, başqır, türk, ostyak, kazan, çuvaş və b. tayfaların da daxil olduğunu göstərirlər [4, s. 61-68]. Bu fikrin məntiqi nəticəsi Bolqar ittifaqında olan tayfaların slavyan kökənli olmasıdır ki, bu tamamilə yanlışdır. Biz dəfələrlə As türklərinin Strabonun yazılarında Azərbaycan ərazisində ölkəsi olmaqla m.ö. VI minillikdə əlifbaya sahib xalq olduqlarını göstərmişik.

Bu istiqamətdə Şərq tarixini geniş araşdıran Y.B.Yusifov xeyli tarixi faktlarla burada skiflərin Ön Asiyada məskunlaşma və kimmerlərin ardınca Midiya ərazilərinə gəlişinin m.ö. VII əsrə aid olduğunu faktlarla əsaslandırmışdır [15, s. 355] ki, bu bolqarların bu tarixdən əvvəl mövcud olduqlarını sübut edir və onların m.ö. II əsrdə ərazilərimizə gəlişi versiyasını tamamilə təkzib edir.

Biz Q.Qeybullayevin yazılarında da Qazan tayfalarının bolqarlarla ittifaqına dair elmi faktlarla qarşılaşırıq. O, faktlara istinadən öz yazılarında sovetlər dövrünə qədər Qafqazda Qazan tayfa adlı 24 toponimin olduğunu, XII əsr mənbələrində İrəvan ərazisində Qazan qalası adının çəkildiyini, Azərbaycan ərazisində 10 Qazançı adda məntəqə adı olduğunu göstərir. Bununla bərabər müəllif, Qazan və Qazançı adlarının Şimal Qafqazda, Ukraina və başqırdlarda, Türkmənistan, Qərbi Sibir, Cənub Azərbaycan (kitabda İran), Türkiyə ərazilərində də olduğuna dair xeyli tarixi faktlar göstərir [6, s. 135].

Əgər biz ümumtürk coğrafi arealına nəzər salsaq, müasir dövrdə Türkiyə ərazisində bu tayfa adında Kazan, Kara Kazan, Çoban Kazan, Kazançı, Kazançlı, Kazanlar, Kazançılı, Kazançık, Kazandağı, Kazankaya, Kazantaş kimi məntəqə, Kazan, Kazanlı, Kazancı kimi qəsəbə, ümumilikdə 34 məntəqə və qəsəbə adına təsadüf edirik ki, bu məntəqələrə aid ərazilərdəki yüzdən yuxarı dağ, düz, dərə, bulaq, çay və s. oronim və hidronimlər də bu tayfa adını daşıyır [13, s. 30, 60, 91]. Ümumtürk arealında isə, yalnız “Dünyanın kiçik atlası” kitabında biz Kazan, Kazancık, Kazanlık, Kazanovka, Kazanlı, Kazantip kimi 43 coğrafi adın öz əksini tapdığını görürük [8, s. 22-27, 32-33, 49, 61, 72] ki, burada da Qazan tayfa adı məntəqə adları kimi ümumtürk ərazilərində verilir, lakin bu ərazilərdəki oronimik və hidronimik adlar qeyd edilmir. Təbii ki, istənilən hər hansı bir məntəqə adı ilə bağlı xeyli oronimik və hidronimik adların da mövcud olması danılmazdır.

Biz Azərbaycanın qısa toponimlər lüğətində də Cəbrayıl, Qasım İsmayılov, Zəngilan, Mardakert rayonları ərazilərində Qazanzəmi, Qazançı adda 5 məntəqə adına-oykonimə rast gəlirik. Bu ərazilərdə həm də Qazanbulaq, Qazanqoşa, Qazandağ, Qazangül, Qazangöl, Qazanlı adda oronim və hidronimlərlə rastlaşırıq ki, bunlar mövcud oykonimlərlə bağlı adlardır [2, s. 28].

Bununla bərabər Naxçıvan ərazisi coğrafi adlar sistemi də özündə Qazan tayfa adını daşıyan məntəqə, oronimik və hidronimik adları qoruyub saxlamaqdadır. Oykonimik-məntəqə adlarına biz 1590, 1724-cü illəri əhatə edən Naxçıvan ərazisinə aid qədim arxiv sənədləri və mənbə məlumatlarındakı Qırxbulaq, Məzrə, İğdır, Əlincə nahiyələrində rast gəlirik. Naxçıvan qəzasının göstərilən nahiyələrini əks etdirən bu mənbələrdəki oykonimik sistemdə, Qazan tayfa adı ilə bağlı 5 məntəqə adına təsadüf edirik ki, bunlardan üçü **Qazancı,** ikisi isə, **Qazançılı** və **Qazanlıqdərə** adlarında qeydə alınmaqla, sənəddə bu adlar ərazinin Məzrəə, Əlincə, Xanəgah, Büllur, Ağaverdi, Xaçakelgid və Döyürək kəndləri arasında göstərilirlər [5, s. 37, 61, 66]. Naxçıvan ərazilərinin toponimik sisteminin tədqiqi ilə bağlı elmi ekspedisiyalar zamanı isə biz burada Qazangöl, Qazancı qalası, Qazandağ, Qazançı çayı, Qazangöl düzü, Qazançı mineral suyu, Qazan piri kimi 17 oronimik, hidronimik, teonimik-mifik adlarla rastlaşırıq (-F.R.).

Əgər biz ümumtürk adlar sistemində təkrarlanan Qazan tayfa adını özündə yaşadan bu məntəqə, qala, dağ, dərə, düz, göl və s. toponimik adları nəzərə alsaq, bu adların yalnız türklərlə bağlı olduğu, özünü tam olaraq sübut etmiş olur. Bütün bu faktlar isə, ərazilərin türklərə məxsusluğunu tarixi faktları olması ilə bərabər, Qazan tayfa adının slavyanlarla heç bir əlaqəsi olmadığını, onların prototürk Kas tayfasının varisləri olduğunu birmənalı olaraq təsdiq edir ki, biz aşağıda bunu tarixi faktlarla göstərəcəyik. Bəs Qazan tayfa adı, bu söz tədqiqatlarda necə izah edilmiş, sonda hansı mənaya tam olaraq üstünlük verilmişdir?

Bu istiqamətdə aparılan tədqiqatlar zamanı biz xeyli sayda tədqiqat əsərlərində bu tayfa adlı məntəqə adlarının yer aldığını görürük. Ümumilikdə tədqiqat əsərlərinə müqayisəli nəzər saldıqda, Qazan tayfa adından gələn məntəqə adları müxtəlif mənalarda, biri-birini təkzib edən fərqli fikirlərlə izah olunmuşdur. Burada təsviri xarakterli izahlarla yanaşı, müxtəlif adlar çəkilsə də, mənaları açıqlanmamışdır.

Biz bu tayfa adını daşıyan **Qazançı** məntəqə adlarının izahına N.Məmmədovun, T.Əhmədovun araşdırmalarında səthi izahlarla rast gəlirik. N. Məmmədov Qazançı məntəqə adını "Qazana bənzər" mənada təsviri baxımdan izah etmişdir ki, məntəqə adlarının bu ehtimalla, bənzətmə üsulu ilə yaranması tamamilə yanlışdır. T. Əhmədov isə öz monoqrafiyasında, Qazançı adının həm məntəqə adı, həm də oykohidronim-məntəqə adlı su hövzəsi olduğunu göstərməklə, etimoloji izahına toxunmamış, adın daşıdığı məna haqqında heç bir fikir söyləməmişdir [11, s. 433-434].

Bu istiqamətdə geniş tədqiqatlar aparan A.Bağırov, N.Məmmədovun və bir qrup müəlliflərin toponimik tədqiqatları ilə bağlı yazılarındakı "Qazana bənzər", "Qazana oxşar" kimi etimoloji izahların yanlış fikir, xalq etimologiyası olduğunu, elmi baxımdan özünü doğrultmadığını göstərmişdir. O, bu sözün daşıdığı mənaya öz fikrini bildirərkən, tədqiqatlarda yer alan antroponimik-şəxs adlı etimoloji izahları əsas götürmüşdür. Burada S. Babayev, A. Bayramov, Q. Voroşiln **Qazan** sözü ilə bağlı yazılarındakı fikirlərə üstünlük verən müəllif, bu tədqiqatçıların yazılarında yer alan "Dədə Qorqud" dastanındakı Qazan xan adı ilə bağlı izahlara müsbət yanaşmış, bu adın "Qazan" adından gəldiyini bir daha təkrarlamaqla, adın antroponimi-şəxs adı ilə formalaşdığını göstərmişdir [3, s. 54-55]. Lakin, yuxarıda da qeyd etdiyimiz kimi bu istiqamətdə geniş araşdırmalar aparan Q.Qeybullayev, bu adları Bolqar türklərinin Qazan tayfa adı ilə izah etmiş, adı bolqarların bir tayfa qolu olaraq göstərmişdir. O, Kas türklərinin istər mifini, onlardakı çar adlarının etimologiyasını, istərsə də tarixinə dair qiymətli faktlar göstərsə də, bu geniş araşdırmada nədənsə Qazan türklərinin onların varisi olması haqqında hər hansı bir məlumat verməmişdir [6, s. 135].

Biz bütün bunları ümumiləşdirərək, bəzi faktlara da diqqət etmək istərdik. Öncə qeyd edək ki, Qazan türklərinin əcdadları olmuş Kas türkləri bir çox tədqiqat əsərində **Kassi** yazılışı ilə verilmişdir və bunlarla bağlı aparılan tədqiqatlar zamanı bu qədim türklərin Azərbaycan xalqının etnogenezindəki yeri və onun varisləri haqqında xeyli tarixi faktlarla rastlaşırıq ki, bu faktlar da xüsusi elmi əhəmiyyət daşıyır. Qədim qaynaqlara, Şərq tarixinə dair mənbələrə diqqət edərkən, **Kas** tayfalarının bir qrup qədim **kuti, lulubəy, turukku, hürrü, subərlərlə** bərabər m.ö. 1795-1741-ci illər Samsuiluna dövründə Babilistan ölkəsinə (əsərdə Vaviloniya) basqını haqda məlumatlar verilir. Bu mənbədəki yazılarda onların m.ö. 1518-ci ildə göstərilən ərazini tutaraq, burada çarlıq yaratdıqları, 300 ilə qədər (m.ö. 1204-cü ilədək) bu ərazini idarə etdikləri haqda geniş məlumat verilir [14, s. 299-300]. Digər mənbə məlumatlarında biz **sak, kaspi, xəzər, qazaq, qazan, kara kas, sarı kas, kasar, xakas** boylarının Kas türklərinin varisləri olduqlarını görürük. Burada Skif və Göytürk tayfaları içərisində **Kasar, Xəzər, Xakas** türk tayfaları adlarının çəkilməsi və skiflərin əsl adlarının **bolqar, xəzər, alan, avar** olduğu, Qazan türklərinin isə bolqarlarla ittifaqda olması faktları ilə qarşılaşırıq [7, s. 98-108; 9, s. 30-

32]. Bununla bərabər bəzi tədqiqatlarda bu qədim prototürk varislərinin mifik inanclarında onların əcdadları olmuş Kas türklərinin mifik inancı olan Kaşşu, Şukamuna, Sax kimi tanrı adlarının yer aldığına da dair ,yetərli faktlarla qarşılaşırıq. Mənbələrdə göstərilən miflərin Ay, Günəş, işıq, odla bağlılığı haqqında da yetərincə ensiklopedik əsərlər mövcuddur ki, buradakı məlumatlar Qazan türklərinin Kas türklərinin varisi olduğunu, sonralar Bolqar türkləri ilə bir ittifaqda birləşdiklərini tam olaraq sübut edir. Kas türklərinin istər dili, tarixi və yayıldıqları ərazilər, istərsə də inanclarının Qazan türklərinin məişətlərində və dillərində təkrarı fikrimizin doğruluğunu tam olaraq sübut edir [10, s. 34-46].

Bolqarlarla bir ittifaqda olan Kas varisləri Qazan tayfa adının daşıdığı məna da elmi cəhətdən xüsusi əhəmiyyət daşıyır. Biz qədim türk sözlükləri və mənbə məlumatlarına istinadən bu adın quruluş formasına diqqət etdikdə, onun Kas türklərinin adından gəlməklə, onların varisi olduğunu bir daha görürük. Ad **Qaz+an** yazılışında Kas tayfa adı və türk dili sözlüklərində **-un/an** yazılışında "mənsubluq, məxsusluq" şəkilçisindən formalaşmışdır. Bu quruluşdakı söz kökü və "mənsubluq" şəkilçisi nəzərə alınmaqla ad "Kaslara məxsus", "Kasların" varisi mənasında izah olunur. Biz bu tayfa qolunun kaslardan gəldiyini Kas adının mənasına gəldikdə isə, biz kaslardan danışarkən, bu adın **Kaşşu** qədim türk tanrı adından Kas tayfa adına adladığını faktlarla qeyd etmişik ki, bir çox mənbələr bu tanrı adının olduğu kimi Kassi yazılışda tayfa adına çevrildiyini göstərir [ətraflı bax 11, s. 443-444]. Ümumilikdə **sak, kaspi, xəzər, qazaq, qazan, kara kas, sarı kas, xakas, kasar** kimi Kas türklərinə məxsus bu varislərinin adlarına diqqət etsək, **sak** tayfa adı əksinə oxunuşda **kas,** (kutu-utuk, sub-bus, tubi-abat, gel-leg, maq-qam və s. varislərə verilən adlar kimi) **kaspi-**kas bəyləri, **xəzər-**kas əri, **qazaq-**uca kas, **qazan-**kaslara məxsus, **kara kas-**ulu kas**, sarı kas-** Şar tanrısının kasları, **Xa-kas**-Şöhrətli kaslar, **kasar-**kas əri kimi mənalar bütünlükdə bu tayfa qollarının kaslara aid olduğunu tam olaraq sübut edir (-F.R.). Burada Xəzər və Kasər tayfa adları yalnız türk dillərinə məxsus **x≈h** fonetik səsəvəzlənməsi ilə fərqlənir.

Bütün bununla bərabər **Qazan** tayfa adının mənasına da diqqət etdikdə, qeyd etdiyimiz kimi Bolqar türkləri daxilində olmuş bu tayfa qolu Kas+an yazılışında Kas tayfa adı və göstərdiyimiz **-un/an**-"mənsubluq" şəkilçisi ilə "Kaslara məxsus" mənasında izah olunur ki, bu da tayfanın kasların varisi olduğunu tam olaraq sübut edir (-F.R.).

Bəs Naxçıvan ərazisində qeydə alınan yeddi məntəqə adında öz adlarını əbədiləşdirmiş Qazan türkləri ilə bağlı **Qazancı (5), Qazançılı** və **Qazanlıqdərə** məntəqə adlarının etimoloji izahı hansı mənalarla sonuclanır?

Əgər diqqət etsək, bu adlarda son dövrlər dilimizdə qrammatik şəkilçiləri kimi yer alan – **çı, -lı, -lıq** şəkilçiləri və "dərə" sözü ilə rastlaşırıq ki, burada şəkilçilərdən **-çı** "şəxs", "peşə" kimi müəyyən fəaliyyət sahəsini ifadə edən şəkilçi olaraq özünü göstərir. Bu adlarda **-lı** şəkilçisi "mənsubluq", **-lıq** şəkilçisi isə "cəmlik" ifadə etməklə, yenə də son dövrlərə aid şəkilçilərdir. İstər bu şəkilçilər, istərsə də "dərə" coğrafi ad göstəricilərinin daşıdığı mənalar nəzərə alınarsa, bu zaman adlar "Qazan düzəldənin", "Qazanlar dərə" mənalarında oykonimik adlar kimi özünü təqdim edir ki, burada mənalar özünü tam doğrultmur. Biz bir çox tədqiqatlarda **-çı** şəkilçisinin qədim türk dilləri və sözlüklərində eyni zamanda "tayfa" mənası daşıdığını görürük və bu yazılarda **Nax+çı-** sözü "nax tayfası" kimi izah olunmuşdur [1, s. 5-11; 11, s. 97]. Bu halda üç **Qazancı,** məntəqə adı-oykonim "Kazan tayfası", Qazancı qalası oronimi "Kazan tayfası qalası", Qazançı çayı, Qazançı mineral suyu kimi hidronimik adlar isə, "Kazan tayfası çayı", "Kazan tayfası mineral suyu" mənalarını daşıyırlar. Qazandağ, Qazangöl düzü, Qazan piri kimi adlar isə, birbaşa Qazan tayfa adından yaranmış adlardır. **Qazançılı** məntəqə adı da maraqlı semantik quruluşa malikdir Burada **-lı** "mənsubluq" şəkilçisi nəzərə alınmaqla ad "Qazan tayfasına mənsub" mənasında tam izah olunur. **Qazanlıqdərə** məntəqə adına

gəldikdə isə biz qədim sözlüklərdə **lık** tərkibinə şəkilçi olmaqla bərabər həm də "işıq" mənasında leksik vahid olaraq rast gəlirik ki, bu da adı "İşıqlı Qazan dərə"si mənasında tam olaraq ifadə edir [11, s. 434]. Ümumilikdə məntəqə adları Kas tayfasının qolu olan Qazan tayfasının adını daşıyır və burada "qala", "çay", "mineral su" "dərə", "dağ", "göl", "pir" kimi coğrafi ad-nomen göstəriciləri ada sonradan əlavə olunmuş sözlərdir. Bütün bu dil və tarixi faktlar adların Kas türk tayfasının varisi olan Qazan türkləri ilə bağlı olduğunu təsdiq edir ki, bu adı "Qazana bənzər" və antroponimik ad olması fikrini tam təkzib edir. Onun antroponimik ad kimi şəxs adlarına adlaması isə, qədim türk Kas tayfa adı ilə bağlı olmuşdur.

Bütün bunları ümumiləşdirməklə nəticə olaraq qeyd edək ki, **sak, kaspi, xəzər, qazaq, qazan, kara kas, sarı kas, kasər, xakas** türk tayfaları, eləcə də Qazan türkləri qədim Kas türklərinin varisləri olmuş, və bu tayfalr adlarını öz əcdadlarının adından müəyyən hərf dəyişiklikləri ilə götürmüşlər. Bütün bu tayfa adlarını formalaşmasında, eləcə də Qazan tayfa adı ilə bağlı toponimlərin etimoloji izahlar zamanı xeyli leksik və qrammatik şəkilçilərlə rastlaşırıq. Bu adlarda **pi**-"bəy", **ak-**"uca", **ka**-"şöhrətli", **lık-**"işıq", **kara-**"ulu", **sarı**-"Şar işıq tanrısı", **çı**-"tayfa" **si/zu**-"müdrik, zəkalı", **ər**-"kişi, igid" kimi qədim türk sözləri, **-un/an-** "mənsubluq, məxsusluq" şəkilçisi ilə qarşılaşırıq. Mənbə və qədim türk sözlüklərində yer alan bu qədim dil ünsürləri m.ö. VI-III minilliklərdəki tayfa adlarındakı leksik və fonetik əlamətləri olduğu kimi təkrarlamışdır. Bu isə göstərilən qədim tayfaların və onların varislərinin eyni mənşədən gəldiyini, eyni dilə və mifik inanclara sahibliyini bir daha sübut edən dil və tarixi faktlardır.

## ƏDƏBİYYAT

1.Асталов В.А. Материальная культура чеченцев и ингушей в XVIII - XIX вв. (Историко-этнографическое исследование), Грозный: Отечественная история, 2004, 186 с.
2. Azərbaycan SSR-nin qısa toponimlər lüğəti. Bakı: ASE Baş redaksiyası. 1986, 114 s.
3. Bağırov A.N. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 333 s.
4. Батыров У.Ф., Собянин А.Д. Булгары: неизвестная история очень известного народа//"Профи", Москва: Наука, 1999, № 6-7, s. 61-68
5. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
6. Гейбуллаев Г.А. К этногенезе азербайджанцев. Т. I, Баку: Элм, 1991, 548 с.
7. Quliyev Ə.A. Orxon-Yenisey abidələrində toponim və etnonimlər. Bakı: Nurlan, 2004, 128 s.
8. Малый атлас мира. Москва: Картография ГУГК, 1985, 331 с.
9. Məmmədhəsən Vəliyev (Baharlı). Azərbaycan. Bakı: Elm, 1993, 192 s.
10. Rzayev F.H. Qədim Şərur oykonimlərinin mənşəyi. Bakı: Nurlan, 2006, 242 s.
11. Rzayev F.H.Naxçıvan əhalisinin etnogenezi tarixindən (miladdan öncə II-I minilliklər). II c. Bakı: ADPU mətbəəsi, 2017, 588 s.
12. Сиротенко В.Т. Письменные свидетельства о булгарах IV—VII вв//Славяно-Балканские Исследования, Историография, и источниковедение АН СССР. Инст. Славяноведения и Балканистики. Москва: Наука, 1972, с. 195-218.
13. Tuncer Gülensoy. Türkçe Yer Adları Kılavuzu. Ankara: Bizim Büro Basımevi 1995, 103 s.
14. Всемирная история. Т. II, Москва: Госиздат, 1956, 899 с.
15. Yusifov Y.B. Qədim şərq tarixi. Bakı: Bakı Universitet, 1993, 496 s.

***AMEA Naxçıvan Bölməsi,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***
***E-mail: firudinrzayev@gmail. com***

**Firudin Rzayev**

## THE ETHNOOYKONYMS RELATED WITH THE NAMES OF BOLQAR TRIBES LIVED IN NAKHCHIVAN B.C.

The article deals with the ethnooykonyms related with the names of Kazan turuks tribes lived in Nakhchivan B.C. This topic has never been investigated by the scientists till nowadays. The language elements exist in these prototurk oykonyms have comparative investigated with different dictionaries and sources. The comparative investigation of the ancient turkic words exist in these writings with the words reflected in these oykonyms give opportunity to carry out some new scientifec results.  During the linguistic investigation we see that the ancient language elements exist in the oykonyms of Nakhchivan are repeated in ancient writings. During the detailed investigation of historical materials it is clear that the oykonyms have been formed from these tribe names. According to the ancient sources the prototurks Kzan were lived in the territories of Nakhchivan-Nakhar country in the *II-I* B.C.

**Keywords:** *Nakchivan, Bolqar, Kazan, millenniums B.C., ethnooykonyms, language elements.*

**Фирудин Рзаев**

## ЭТНООЙКОНИМЫ,  СВЯЗАННЫЕ  ДО Н.Э. С ПРОТОТЮРКОМ КАЗАН, ЖИВУЩИХ В НАХЧЫВАНЕ

Статья посвящена этноойконимам до н.э. связанные с прототюркским племенам Казан. Эта тема, связанная с Нахчываном, до сих пор не были исследованы учеными. Языковые единицы в ойконимах, носившие, имени этих прототюрков сопоставлены разными словарями и источниками. По этому направлению были исследованы и сопоставлены языковые элементы на основе древних летописей. При сопоставлении слова в летописях с древнетюркскими словами выявлены много научные результаты. Обнаруженные языковые элементы в Нахчыванских ойконимах, дописьменного периода при лингвистическом анализе повторялись и в античных летописях. Путём всестороннего анализа исторических материалов и языковых элементов выявлено, что ойконимы наименованы с именами этих племен. А прототюрки Казаны на основе античных сведений жили на древней Нахчыванской земле, в стране Нахарин-еще с II-I тысячелетий до н. э.

**Ключевые слова:** *Нахчыван, Болгар, Казан, тысячелетии до н.э., этноойконимы, языковые элементы.*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 12.01.2021**
**Son variant 02.03.2021**